

***Salam, Əlirza müəllim. İnşallah, yaxşısınız! Təzə il ərəfəsində həm Sizi, həm "Kredo"-çuları, o cümlədən ailə üzvlərinizi təbrik edib arzularımı bildirmək, həm də şeirlərimdən göndərmək istədim...***
***Siz kiçik kollektivinizlə böyük işlər görüb uğurlar qazanmısınız. Təzə ildə qazancınız daha da bol olsun! Bütün arzularınıza çatasınız. Layiq olduğunuz hər şeyi Allah qismət eləsin! Bayramınız mübarək!***

***Hörmətlə: Nübar ELDARQIZI***

### Bazardan yük ilə qayıdan qadın

Bazardan gəlirdi yaşlı bir qadın,
Rəngi solğun idi, vücudu yorğun,
Gah gedir, dururdu gah dalğın-dalğın,
Fərqinə varmayıb bəlkə əvvəldən,-
Ya sonra unudub qadın olduğun...

Götürüb çiyninə bir böyük yükü,
Ağırlıq altında boyu qısalıb.
Əri kimlərinsə nazını çəkib
O isə ərinin "qeydinə qalıb"...

Gördüyü bu olub, götürdüyü bu,
Ər evinə cehiz gətirdiyi bu!
Bir böyük külfətin qulluğun tutub,
Bu Allah bəndəsi, bu insan qulu!. .

-Nənən də eləydi, anan da elə,
Sən də elə görüb, elə böyüdün...
Taleyin qızına miras qalmasın,
Gərək deyil ona belə öyüdün!

Bunca çiləni tək daşıyan qadın,
Sənə kimsə, niyə can yandırsın ki?!
Ömrü kimlərçünsə yaşayan qadın,-
Dünya dağılacaq olmasa sanki...

Qapanıb içinə ətrafı duymur,
Sevib sevilməyi unudub çoxdan!
Onunçün tökülən yaşa da qıymır,
Özünə ağlayan bu bədbəxt, insan ...

-Sənin şirin sözə ehtiyacın var!
Sənin gülər üzə ehtiyacın var!
Görən, görən gözə ehtiyacın var.
-Bazardan yük ilə qayıdan qadın!!!

...Çəkir ayaqların zorla bir qadın,
O-yazıq, o-fağır,o-yesir qadın...
Bilmirsən gəlirdi yoxsa gedirdi
dünyadan, -
dünyada o əsir qadın...

### Yaradanım!

Nə atam var, bu dünyada, nə də məni sevən anam,
Ha baxıram bir kimsəyə nə inam var,nə də güman,
Qoyma məni əyilməyə, yarəbb, qoyma məni sınam, -
Güvən yerim, -Yaradanım!

Büdrəyəndə, yıxılanda ətəyindən tutub durram,
Kimsə məndən mədət umsa, sənə isnad, -ovundurram!
Hər pisliyi, xəyanəti, şər, böhtanı unutduran,
-Andım, pirim, -Yaradanım!
Mən zəif bir məxluqunam, özüm zərif, ruhum incə,
Elə qırırlar qəlbimi xırda-xırda, incə-incə,
Qanı quruyur yaramın, xəfifləyir bu işgəncə,
Biixtiyar dodaqlarım pıçıldayıb söyləyincə,
-Ol kirdarım, -Yaradanım!

Mən kimsəyə düyün vurub dağ çəkmədim bu həyatda,
Daş atdılar, baş yardılar, baş qoşmadım heç mən hətta!
Məndə dağlar sıra-sıra, üst-üstdədi, alt-altda,
Nəfsə uyub sitəm etsəm, fəryad etsəm bu ovqatda,
Əfv et, Tanrım, -Yaradanım!

Qəlb qıranlar incitməkdən həzz alanda...mən çaşıram,
Könlüm sınır, mənsə onu yamamağa çalışıram.
Belə-belə pisliklərə alışmağa...alışıram,
Sinəmdəki, artıq nəysə, - dəlik-deşik, şram-şram,
Lütf et sarım, -Yaradanım!

Cənnətlik, ya cəhənnəmlik yaşamışam, - sən bilirsən!
Mən bu gücsüz vücudumla nə yükləri daşımışam, -
sən bilirsən!
Ətdən, qandan insan deyil, bəlkə də bir daş imişəm?!
- Sən bilirsən!

### Ver əyarım, - yaradanım!

Ən gözəl söz sənə ithaf, sənin vəsfin olan sözdür,
Min illərdən öncə belə şair vardı, -qalan Sözdür!
Yar da, var da, yer də, şer də yalan sözdür, yalan sözdür,
Əşarım sən-Yaradanım!

Mən heç bir şey bilmirəm ki, bilən də sən, görən də sən!
Bir yanlışlıq eləməzsən qanununda, törəndə sən!
Əkən də sən, bitirən də, becərən də, dərən də sən!
Qərarım:-Sən, -Yaradanım!

Münsif sənsən, hakim sənsən, mütləq sənsən, bir Sən, Allah,
Adil sənsən, zalımların cəzasını ver sən, Allah!
Hər üzümüz sənə məlum, sən ən böyük sirsən, Allah,
Əsrarım sən, Yaradanım!
Hünkarım sən, -Yaradanım!
Şüarım sən, Yaradanım!
Və...yarım sən, Yaradanım!!!

2001

### Dünya kimə qalacaq

Bir-bir gedir gələnlər,
Dünya kimə qalacaq?
Siz,ey mal-mülk bölənlər,
-Dünya kimə qalacaq?

Yaşılları,alları,
Gün keçdikcə xallanır,
Ay Allahın qulları,
-Dünya kimə qalacaq?!

Dünya-quyruq,-yeyənlər,
"Mənəm,mənəm!"deyənlər,
-"Mənim,mənim!"-deyənlər,
Dünya kimə qalacaq?

### Allah var!

Olandan, olacaqdan,
Hər şeydən, - bir agah var!
Bəs nədəndir gün-gündən
Artır günah, günahkar?!

Bu nağıl tanış gəlir?
-Bir baş gedir, beş gəlir,
Bunlar hara düzəlir?-
Sən çıxmısansa qahmar!

Əfv et, Allah, görürsən
Yerdə nə qədər ah var!
Başlarına daş göndər,
Üstünə yaz:-Allah var!

### İqtidar-müxalifət

Piyada gəzməyi sevərdi atam.
Tapdayıb düzlərdi kəsək yolları.
İki barmağı əksik olsa da, on bir
Nəfərə olmuşdu dirək qolları.

Yerisi-duruşu ağır kişiydi,
Ürəyi yuxaydı, dili acıydı.
Söz götürməz, amma, fağır kişiydi,
Ağac tək düşünsək, -nar ağacıydı...

O qədər safdı ki, məhərrəmlikdə
İmamçın gözündən çaylar axardı...
Hamını özü tək düz bildiyindən,
Bəzən Yezidə də qahmar çıxardı.
Kimsə söz deməzdi sözünün üstə
O, qaya idisə, mən,-daş olmuşam!
İqtidar-müxalif çatışmasında
Yaxşı ki, atamdan alqış almısam!.

### Kütləvi şəkildə ya səhv etdiksə?

Bizdən qabaqdaydı bəzi gedənlər,
Onların ardınca gedəsiydik də...
Addımı addımın izinə qoyduq,-
Kütləvi şəkildə ya səhv etdiksə?!

Bir toxum rast gəldi,alıb götürdük.
Yəqin quşlar salıb, - gülüb götürdük.
Min ildi beləcə gəlib gedirdik,
-Kütləvi şəkildə ya səhv etdiksə?!

Əkdik o toxumu,nə çıxdı?-Şübhə!
Dadanlar dağıldı dörd bir tərəfə.
Yenə önə çıxdı yeni bir nəfər...
-Kütləvi şəkildə ya səhv etdiksə?!

Sərhədi pozuldu "olmaz"la "ol"un,
Qarış-quruş oldu məchulla məlum...
Sərbəst,heca,əruz...fail-failun...
-Kütləvi şəkildə ya səhv etdiksə?!

Noyabr,2021

### Yaz, - ağlamaq gəlsin...

Yoruldum dünyanın həsb-halından,
Gedirəm ömrümü dincə qoymağa.
Hələ qərarımı sindirməmişəm;
Ürəyimdə təşviş,başımda qovğa ...

Ömrün ətəyindən nə tutub durum,
Mehriban düşmənik iksi bir canda.
O qədər pisliyə tanıq olmuşuq,
Vallahi çiyrinir insan insandan...

Dostlardan qırılıb,yaddan çıxmışıq,
Vaxt yox ilgilənək yasla, yasaqla...
Bəlkə bizi belə "ağlayacaqlar":-
YouTuba gir və yaz:-Bir saat "Ağla!.."

21-10-21

### Paxıl

Sən "yaxşı"paxılsan,
Üzünü tez bəlli etdin.
Mən bir az yüksələn kimi,
Bir bəhanə tapdın
Və getdin...
Yoxsa mən,
Günü bu gün də,
Qəlbimdə olan hər şeyi
Çılın-çılpaq sənə söyləyəcəkdim.
Ah....Bu saflığımdan nələr çəkdim...
Yenə də,sağ ol,
Məni tez ayıltdın,
Paxıl!!!

### Çılpaq və dinsiz...

Nə qədər günah var insan adına,
Deyirlər cəzası cəhənnəmdədi.
İnsan öz həmcinsin elə yandırır,
O odun yanında cəhənnəm nədi?!

Hər şey axarıyla keçib gedərdi...
Səmtini dəyişən biz olmuşuq biz!
Əsrlər boyunca paltar dəyişdik;
-Yenə həminkiyik,çılpaq və dinsiz!..

### Dar ağacı

Dünyanın hökmünə cümlə baş əydik,
Gedən,-can verər,-bad-xəracı bitər!
Bir şirin xətrinə min acı yedik,
Şirin qurtardısa,acı da bitər!

-Yalandı,qız qalsa qızıla dönür!
Yalançının şamı axşamdan sönür!
Düzsə yol,-baxanda sonu görünür;
-Amma düz yolun da tıxacı betər!

Məsafədə udan,-gücdə uduzar!
Qumarda uduzan sevgidə udar!..
Mərd olan,-hər halda sözünü tutar...
-Cəllad bağ salsa,dar ağacı bitər!

Noyabr, 2021